# AZƏRBAYCAN SƏHİYYƏSİNİN MODERNLƏŞMƏSİ

## Bioloji təbabətin tətbiqi və uğurları da bu inkişafın simmetrik görüntüsünü əks etdirir

**Azərbaycan dövlətinin və ölkə Prezidenti cənab ilham Əliyevin səhiyyəyə göstərdiyi qayğı digər sahələrdə olduğu kimi bu sistemdə də önəmli irəliləyişlərlə izlənməkdədir. Məhz bu siyasətin nəticəsidir ki, 2005-ci ildən etibarən Səhiyyə Nazirliyi sistemində genişmiqyaslı islahatlar həyata keçirilir. İstər Bakı şəhərində, istərsə də regionlarda əksər tibb müəssisələrində yenidənqurma və bərpa işləri vüsət alır. Başlıcası paytaxtla yanaşı respublikanın ən ucqar rayonlarında da müasir tibb ocaqları, diaqnostika mərkəzləri yaradılır. Uğurlu səhiyyə islahatlarının tərkib hissəsi olan yeni xəstəxana və tibb müəssisələrinin regionlarda da inşası Azərbaycan dövlətinin vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev regionlara səfərlərində, eləcə bütün görüş və çıxışlarında sosial-iqtisadi inkişafın effektiv nəticələri kimi əhalinin sağlamlığına göstəilən qayğını xüsusi vurğulayır.

Tibb sahəsində daha böyük uğurlar qazanılması üçün bir sıra xarici ölkələrlə işgüzar münasibətlər qurulur. Görüşlər, təcrübə mübadilələri, yeniliklərin tətbiqi, kadr hazırlıqları və başqa tədbirlər ardıcıllaşır.

Tibbin nisbətən yeni istiqamətlərindən biri olan bioloji təbabət də Azərbaycan səhiyyəsində özünəməxsus yer tutaraq əhalinin sağlamlığı uğrunda mühüm addımlar atır. Son 10 il ərzində respublikamızda bioloji təbabətin xidmət coğrafiyası daha da genişlənərək müsir və effektiv müalicə statusu qazanmaqdadır. Ölkə rəhbərliyinin qayğısı sahəsində bu faydalı müalicə üsulunun ölkəmizdə qurulub fəaliyyət göstərməsində tanınmış iş adamı, Mərkəzi Bioloji Təbabət Klinikasının baş direktoru Elxan Yaqubovun böyük zəhmət və çalışmaları danılmazdır. Məhz onun uğurlu projeləri nəticəsində bu gün bioloji təbabət özünün " xoşməramlı sirlərini" əldə olunan gözəl nəticələrlə açmaqda, xalqa xidmət etməkdədir.

Bu günlərdə klinikanın baş direktoru Elxan Yaqubovla söhbətimiz zamanı o, rəhbərlik etdiyi tibb müəssisələrinin fəaliyyətindən və qarşıda duran vəzifələrdən danışaraq dedi:

- Bioloji Tənzimləyici Təbabət orqanizmin pozulmuş fizioloji funksiyalarını bərpa etməyə yönələn, özünübərpa və müdafiə mexanizmlərini tənzimləyən müasir müalicə metodudur.XXI əsrdə təbabətin sürətlə inkişaf etməsinə, bir sıra xəstəliklərin müalicəsində əldə olunan uğurlara baxmayaraq, xroniki xəstəliklər, metabolik pozulmalar, ürək- damar və müxtəlif sinir sistemi xəstəlikləri, xroniki yorğunluq sindromu kimi patologiyalar geniş yayılmışdır. Bu xəstəliklərin müalicəsində istifadə olunan dərmanların əksər hallarda daimi, yəni ömürlük təyini, onların törətdiyi fəsadlar və ən əsası, müalicələrin uzunmüddətli və əsasən uğursuz olması alternativ, daha mülayim müalicə metodlarının axtarışını zəruri etmişdir.Bioloji tənzimləyici təbabət məhz bu tələblərə cavab verir.



Bioloji tənzimləyici təbabət - dahi alman alimləri tərəfindən təkmilləşdirilmiş və müasir təbabətin tələblərinə uyğunlaşdırılmış müalicə üsullarından ibarətdir.

Bioloji Tənzimləyici Təbabət - şərq və qərb təbabəti arasında bir körpüdür.Bioloji tənzimləyici təbabət:

**- xəstəliyi deyil, xəstəni müalicə edir**

**- müalicə fərdi olaraq seçilir - hər bir xəstəyə individual yanaşılır**

**- müalicədə Almaniyada istehsal olunmuş təbii tərkibli, xüsusi texnologiyalarla hazırlanmış dərman preparatlarından istifadə edilir**

**- müalicə zamanı digər orqan və toxumalar zədələnmir**

**- müalicə zamanı özünübərpa və müdafiə sistemlərinin pozulmuş funksiyaları bərpa olunur**

**- müalicənin təsiri uzunmüddətli və effektli olur**

**- Mərkəzi Almaniyada yerləşən bioloji tənzimləyici təbabət dünyanın ən inkişaf etmiş ölkələrində müvəffəqiyyətlə istifadə olunur.**



Bioloji müalicə metodlarına əsaslanan "BİOLOJİ TƏBABƏT" klinikası Bakıda 2009-cu ilin fevral ayından etibarən fəaliyyət göstərir. Klinikada Almaniyada beynəlxalq homotoksikologiya kurslarını bitirmiş yüksək ixtisaslı həkimlər çalışır.Bioloji tənzimləyici təbabətin əsaslarını klinikanın həkimlərinə daha dərindən aşılamaq, həmçinin, ölkə həkimlərini yeni müalicə metodları ilə tanış etmək üçün klinikada Almaniya, İsveçrə, İtaliya, Belçika, Kolumbiya, Ukrayna, Rusiyadan gələn mütəxəssislər tərəfindən müxtəlif elmi-praktik seminarlar, forum və mühazirələr keçirilir; peşəkar həkim məsləhətinə ehtiyacı olan xəstələr qəbul olunur. Bioloji Təbabət ilə müalicə dünyanın 50-dən çox inkişaf etmiş ölkəsində tətbiq olunur. Hazırda Azərbaycan həkimlərinin müalicədə aldığı nəticələr Dünya Bioloji Təbabət mütəxəssisləri arasında İsveç, Almaniya və Kolumbiyadan sonra dördüncü yerdədir.Bioloji Təbabət Klinikasında bu müalicə metodu ilə artroz, fəqərəarası disk yırtığı, xoralı kolit, trofik xora, revmatoid artrit, psoriaz, bronxial astma, podaqra, dağınıq skleroz, Parkinson xəstəliyi kimi xəstəliklərdən əziyyət çəkən minlərlə xəstənin sağlamlığı bərpa edilmişdir.

Bu illər ərzində Göyçay, Sumqayıt, 2018-ci ilin dekabr ayından isə Masallıda Bioloji Təbabət klinikaları fəaliyyətə başlamışdır. Cənub bölgəsində klinikanın açılmasında məqsəd - bu regionun əhalisinin, artıq xarici ölkələrə (İran, Türkiyə) getmədən, keyfiyyətli müalicədən yararlanmasına şərait yaratmaqdır. Masallı Bioloji Təbabət klinikasında çoxprofilli cərrahiyyə kabinetləri, 28 çarpayılıq palatalar, tam avtomatlaşdırılmış, müasir avadanlıqlarla təchiz olunmuş laboratoriya, geniş profilli müasir cihazlarla təchiz olunmuş fizioterapiya şöbəsi, MRT (maqnit rezonans tomoqrafiya), KT (komputer tomoqrafiyası), Rəqəmsal rentgen, Panoram rentgen, qastroendoskop, USM və s. diaqnostik cihazlar quraşdırılmışdır. Bundan əlavə, müalicəvi sanatoriya xidməti göstərmək üçün Naftalan palçıq vannaları, Naxçıvan duzundan yaradılmış "aspiratorlu Duz mağarası" bölgə əhalisinin istifadəsinə verilmişdir.

BTK-nın məqsədlərindən biri də Azərbaycanda Tibbi Turizmin idxalına nail olmaqdır. Artıq BTK-nın sayəsində Azərbaycana xarici ölkələrdən xəstələr müalicə almağa gəlirlər.

23 aprel 2019 tarixində Bakı şəhərində "Qlobal Sağlamlıq hamı üçün" şüarı altında Azərbaycan Dövlət Turizm Agentliyinin rəsmi dəstəyi ilə Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası (AHTSA) və Azərbaycan Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə 3-cü Qlobal Sağlamlıq Turizm Forumu və Qlobal Sağlamlıq Turizm Şurasının (QSTŞ) 5-ci Assambleyası keçirilib. Qürurla bildiririk ki, "Bioloji Təbabət" klinikası tarixə düşəcək bu tədbirin Baş Sponsoru olmuşdur.

AzərbaycandaBioloji Təbabət klinikasında İran, Türkiyə, İrak, Albaniya, Ukrayna, Rusiya və s. ölkə vətəndaşları müalicəsi mümkünsüzhesab edilən xroniki xəstəliklərdən uğurla müalicə olunmaqdadır.

**Türkiyənin məşhur klinikaları ilə əməkdaşlıq nəticəsində,bu ölkədə müalicəsi mümkün olmayan xəstəliklərdən əziyyət çəkən xəstələr Azərbaycanda sağlamlığına qovuşurlar.Həmçinin, məqsədimiz- Bioloji Təbabət Elmi Tədqiqat İnstitutunu yaradaraq, hazırda müalicəsi mümkün olmayan xəstəliklərin müalicə protokolunu işləyib hazırlayıb, tədris müəssisələrinə təqdim etmək, bununla da Azərbaycan tibb sahəsinə öz töhfəmizi verməkdir...**

**Məzahir Əhmədzadə**

